# Ulu Öndərin bütün həyatı və fəaliyyəti Azərbaycan xalqı ilə bağlıdır

## Müsahibimiz Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyevdir

***-Musa müəllim, müstəqil Azərbaycanın qurucusu ulu öndər Heydər Əlievin anım günüdür. Ölkəmizin inkişafında ulu öndər Heydər Əliyevin rolunu necə şərh edərdiniz?***

-Azərbaycan xalqının bütün dövlətçilik tarixinə nəzər yetirəndə görürük ki, görkəmli dövlət xadimlərimiz, sərkərdələrimiz, mədəniyyət, elm, sənət xadimlərimiz olub. Ulu öndər Heydər Əliyev onların hamısının fövqündə dayanan şəxsiyyətdir və Azərbaycan xalqı üçün iki dəfə dövlət qurmuş böyük dövlət xadimidir. Azərbaycan sovetlər dönəmində təbii ki, müstəqil respublika deyildi, keçmiş sovet ittifaqının tərkibinə daxil olan 15 respublikadan biri idi. Həmin vaxt Azərbaycan sosial-iqtisadi, mədəni, elmi və digər göstəricilərinə görə ittifaq respublikaları arasında13-cü yerdə idi. Ümummilli lider Heydər Əliyev respublikaya rəhbərlik etdiyi illər ərzində Azərbaycan inkişaf səviyyəsinə görə ilk iki dövlətdən biri oldu.

Keçmiş SSRİ dağılanda 15 respublikanın içərisində yalnız ikisi müsbət saldoya malik idi. Onlardan biri Rusiya, digəri Azərbaycan idi. Yəni qalan 13 respublika Rusiya və Azərbaycanın hesabına yaşayırdılar. Eyni zamanda, Azərbaycanın təkcə iqtisadi gücü artmadı. Azərbaycanın bütövlükdə sosial mənzərəsi dəyişdi. Kəndlərimiz inkişaf etdi, şəhərlərimiz böyüdü. Sumqayıt, Mingəçevir, Gəncə, Bakıda böyük sənaye mərkəzləri yarandı. On minlərlə azərbaycanlı peşəyə yiyələndi. Ulu öndər Heydər Əliyev həm də elmimizi, mədəniyyətimizi dünya miqyasında tanıtdı.

1991-ci ildə müstəqilliyimizi elan etsək də, 1993-cü ilin iyununa qədər, yəni ulu öndər Heydər Əliyev hakimiyyətə gələnə qədər dövlət qura bilmədik. Müstəqil, müasir Azərbaycanın da qurulması məhz Ümummilli Liderin xalqımız, Vətənimiz, tariximiz qarşısında müstəsna xidmətidir. Bu dahi Lider Azərbaycanı hərc-mərclikdən, vətəndaş müharibəsi təhlükəsindən qurtardı. Böyük şəxsiyyət bir dövlət kimi parçalanıb dünya xəritəsindən silinmək təhlükəsindən xilas etməklə möhtəşəm Azərbaycan qurdu.

***- Həmin illəri necə xatırlayırsınız?***

- Ulu öndər Heydər Əliyevin 1990-cı illərin əvvəllərində xalqımız üçün gördüyü işləri, xidmətləri heç bir dövlət xadimi edə bilməzdi. O vaxtlar Ulu Öndər Naxçıvandan gəlmək istəmirdi. Naxçıvan da böyük təhlükə altında idi. Azərbaycan xalqı kəndlərdə, şəhərlərdə ayağa qalxırdı- "Heydər baba, gəl bu milləti xilas et" deyirdi. Hamı inanırdı ki, milləti bu böhrandan yalnız ulu öndər Heydər Əliyev xilas edə bilər. Ümummilli Lider 1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə hakimiyyətə gəldi. O zamanlar bilirsiniz ki, Azərbaycanda vətəndaş müharibəsi təhlükəsi yaranmışdı. Artıq Gəncədə qan tökülmüşdü. AXC-Müsavat hakimiyyətinin bətnindən çıxan, sonra da o hakimiyyətə qarşı çıxan Surət Hüseynov qiyam qaldırmışdı. Cənubda isə Əlikram Hümbətovun başçılığı altında separatizm hazırlanırdı. Şimal bölgəsində "Sadval" kimi separatçı bir təşkilat xeyli aktivləşmişdi. Ermənilər də Yevlaxa, Kür çayına qədər əraziləri işğal edib Ermənistana birləşdirmək ideyalarını reallaşdırmaq istəyirdilər. Prinsipcə, onlar bu ideyalarını reallaşdıra da bilərdilər. Çünki ordumuz, ordunu saxlaya biləcək dövlət yox idi. İnsanları səfərbər edəcək dövlət də yox idi. Məhz ulu öndər Heydər Əliyev bizi bu bəlalardan xilas etdi. Qısa müddət ərzində vətəndaş müharibəsinin, dövlət çevrilişi təhlükəsinin qarşısını aldı. Ailə üzvlərinin, eyni zamanda, öz həyatını risk altında qoyaraq həmin o mübarizələrə təkbaşına qalib gəldi. Bunlar böyük siyasətçinin dünya, politologiya tarixinə yazılası siyasəti idi.



1994-cü ilin oktyabrında dövlət çevrilişinə cəhd zamanı yenə də bir güllə atılmadan yalnız ümummilli lider Heydər Əliyev televiziyadan xalqa müraciət etməklə yüz minlərlə insan gecə dövlətin müdafiəsinə toplaşdı. Çünki xalq Heydər Əliyevin şəxsində Azərbaycan dövlətini görürdü. Ondan sonrakı dövrdə ağır iqtisadi, sosial böhran keçirirdik. 1998-ci ildən başlayaraq Azərbaycanda iqtisadi tənəzzül dayandı və biz yavaş-yavaş iqtisadi sabitləşmə dövrünə keçdik.

Ulu öndər Heydər Əliyev Azərbaycan xalqı üçün dövlət yaratdı və Azərbaycançılıq ideologiyasını, xalqı öz ətrafında birləşdirən Yeni Azərbaycan Partiyasını (YAP) yaratdı. YAP-ın öncə lideri Heydər Əliyev hakimiyyətə gəldi. 1995-ci ildə keçirilən parlament seçkilərində YAP öz liderinin etimadını doğruldub seçkilərdə qalib olaraq hakimiyyətə gəldi.

Yeni Azərbaycan Partiyası təkcə Cənubi Qafqazın və bölgənin ən böyük partiyası deyil, həm də monolit və ən uğurlu partiyasıdır. Partiya yaranandan etibarən təxminən 30 il ərzində xalq bu partiyaya həmişə etimad göstərdi. Budur, Heydər Əliyevin Azərbaycan xalqı, Azərbaycan dövləti üçün gördüyü böyük işlər.

***- Musa müəllim, uğurlarımız bunu deməyə əsas verir ki, 2003-cü ildə Ulu Öndər xalqa müraciətində növbəti inamın, etimadın ünvanını göstərdi...***

- Bəli, ulu öndər Heydər Əliyev 2003-cü ilin sentyabrında Azərbaycan xalqına müraciət edərək cənab İlham Əliyevin namizədliyini dəstəkləməyi xalqa tövsiyə etdi. Dahi Lider öz müraciətində də əsaslandırılmış şəkildə bildirdi ki, mənim görüb başa çatdıra bilmədiyim işləri Azərbaycan xalqının dəstəyi ilə İlham Əliyev başa çatdıracaq. Nə idi o başa çatdıra bilmədiyi işlər? Qüdrətli dövlət qurmaq. Qüdrətli dövlətin güclü ordusunu yaratmaq. İnkişaf etmiş, bütöv Azərbaycanı görmək. Bunların hamısını cənab İlham Əliyev yerinə yetirdi.

Bu gün bizim güclü, qüdrətli dövlətimiz var. Bu dövlət öz müstəqilliyini elan edəndən 20 il sonra BMT-nin Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçildi. 155-dən çox dövlət bizi dəstəklədi.

Güclü ordu yaratdıq. Ordu yaratmaq təkcə ordunun təchizatı ilə bağlı deyil. Bəli, təchizatımız üçün də biz öz hərbi sənayemizi qurduq. Müdafiə Sənayesi Nazirliyi yaratdıq. Digər qabaqcıl və dost dövlətlərin müdafiə texnologiyasını aldıq. Amma bu da əsas deyil. Əsas milli vətənpərvər ruhlu gənclərin, hərbçilərin yetişdirilməsi idi. Bunun da əsasını ümummilli lider Heydər Əliyev vaxtilə Naxçıvanski adına hərbi məktəbi yaratmaqla qoymuşdu. İndi bizim generallarımız, böyük rütbəli zabitlərimiz o məktəbin müdavimləridir. Amma tək zabit heyəti də bu məsələni həll etmir.

44 günlük Vətən müharibəsinin qalibləri olan hərbçilərimizin böyük əksəriyyəti müstəqillik dövründə böyüyən, tərbiyə alan gənclərimizdir.

Qələbəmizi şərtləndirən amillərdən biri də beynəlxalq ictimaiyyəti Azərbaycanın haqq işinə inandırmaq və özümüzə tərəfdar toplamaq idi. Azərbaycan bu sahədə də uğurlu siyasət həyata keçirərək böyük dəstək qazanmışdı.

Ulu Öndər tərəfindən əsası qoyulan siyasət Azərbaycanı zirvələrə daşıdı. Həmin siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin nəticəsində tarixi Qələbə qazandıq.

**Günel Eyyubova,**
***"İki sahil"***